*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 sentyabr 2017-ci il № 65 (2182) Qiyməti 25 qəpik


## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik



Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mənəvi kamillik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Öz demokratizmi, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən İslam dini xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi islami dəyərlər və ənənələr Azərbaycanda həmişə uca tutulmuşdur.

İslamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini özündə təcəssüm etdirən mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə və qardaşlığa dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, uca Tanrıya yaxınlığın fərəhini yaşamaq fürsəti əldə edirlər.

Xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd edilir. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, geniş xeyriyyəçilik işləri görülür, dövlətimizin tərəqqisi və əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Əziz bacı və qardaşlarım!

Bu mübarək gündə bir daha hamınıza ulu Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 avqust 2017-ci il.

## Qurban bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə Müdafiə nazirinin təbriki

Cənab generallar və zabitlər!

Gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi Qurban bayramı münasibətilə təbrik edir, Vətən naminə müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Ötən əsrin sonlarında Azərbaycan müstəqilliyə qovuşduqdan sonra ölkəmizin dünyəvi, hüquqi və demokratik dövlət quruculuğu istiqamətində görülən böyük işlər, həmçinin xalqımızın milli-mənəvi dəyərlərinin inkişaf etdirilməsi və qorunub saxlanılması dünya şöhrətli siyasətçi, ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərinin bəhrəsidir. Hazırda bu siyasət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan xalqının qədim dövrlərdən qeyd etdiyi bayramlar sırasında həmrəylik, bərabərlik və xeyirxahlıq kimi mənəvi keyfiyyətlərin təcəssüm tapdığı Qurban bayramı da ölkəmizdə geniş şəkildə keçirilir. Bu bayram insanları mərhəmətə və mənəvi saflığa ruhlandıran dəyərli adət-ənənələrimizdən biridir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik və iqtisadi tərəqqi şəraitində xalqımız bu bayramı da özünəxas təntənə ilə qeyd edir.

Ölkəmizin ərazi bütövlüyünün müdafiəsi zamanı canlarından keçən şəhidlərimizin unudulmaz xatirəsini hər zaman olduğu kimi bayram ərəfəsində də ehtiramla yad edərək şəhid ailələrini, torpaqlarımızın düşməndən qorunması uğrunda savaşda sağlamlığını itirən döyüşçülərimizi və müharibə veteranlarını da bayram münasibətilə təbrik edirəm.

İnanıram ki, Hərbi anda və Nizamnamələrə sadiq qalaraq, Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcək, respublikamızın ərazi bütövlüyünün təmin edilməsinə hər an hazır olacaqsınız.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni müvəffəqiyyətlər arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının Müdafiə naziri**



Vətən uğrunda canımızdan keçməyə hazırıq

3-cü səhifədə



Əsgərlərimiz yüksək vətənpərvərlik ruhuna malikdirlər

5-ci səhifədə



Şəhidlik əlçatmaz zirvədir

7-ci səhifədə



İdman sağlamlığın təməlidir

8-ci səhifədə

# Azərbaycan və Almaniya Müdafiə Nazirlikləri arasında qərargah danışıqları keçirilib

Avqustun 30-da Berlin şəhərində Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası Müdafiə Nazirlikləri arasında qərargah danışıqları keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüş zamanı iki ölkə arasında müdafiə sahəsində əməkdaşlığın cari vəziyyəti, perspektiv istiqamətləri nəzərdən keçirilib, təlim, təhsil, sülhməramlı əməliyyatlar üzrə əməkdaşlıq, eləcə də regional təhlükəsizlik məsələləri müzakirə olunub.

# Yanğın baş vermiş hərbi hissənin ərazisində yaradılmış qərargahın toplantısı keçirilib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin silah anbarında baş vermiş yanğınla bağlı yaradılmış qərargahın toplantısı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, növbəti dəfə əraziyə baxış keçirən Müdafiə naziri general-polkovnik Zakir Həsənov idarə və xidmət rəislərinin iştirakı ilə xidməti müşavirə keçirib, digər dövlət qurumları ilə qarşılıqlı və əlaqəli fəaliyyətin davam etdirilməsi barədə müvafiq göstəriş və tapşırıqlar verib.

Partlayışın nəticələrinin aradan qaldırılması və digər məsələlərin araşdırılması istiqamətində intensiv surətdə işlər davam etdirilir.

Müdafiə Nazirliyi bildirir ki, utilləşmə məqsədilə hərbi hissənin ərazisinə toplanmış silah-sursat hazırda əhali, eləcə də şəxsi heyət üçün təhlükə yaratmır və partlamış köhnə sursatların Silahlı Qüvvələrin döyüş hazırlığına heç bir təsiri yoxdur.

# Hərbi dənizçilərlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nümayəndələrinin görüşü



Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında imzalanan 2017-ci il üçün birgə tədbirlər planına əsasən, Hərbi Dəniz Qüvvələrində görüş keçirilib.

Tədbirdə Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin şöbə müdiri Əliheydər Zülfüqarov müasir cəmiyyətdə dinin rolu və yeri, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə mövzularında çıxış ediblər.

Sonda görüş iştirakçıları mövzu ilə əlaqəli aktual məsələləri müzakirə edib və bu kimi tədbirlərin keçirilməsinin vacibliyini xüsusi vurğulayıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Ordusu hərbi potensialına görə dünyada 58-cidir

*"Global Fire Power" mərkəzi ümumilikdə 50 göstərici əsasında dünyanın ən güclü ordularının reytinqini açıqlayıb.*

AZƏRTAC mərkəzin saytına istinadla xəbər verir ki, ümumilikdə 133 ölkənin yer aldığı siyahıda Azərbaycan Ordusu hərbi qüdrətinə görə 58-ci sıradadır. Azərbaycan bu göstərici üzrə region ölkələrini qabaqlayır. Belə ki, reytinq siyahısında Gürcüstan 82-ci, Ermənistan isə 93-cü yerdədir.

Reytinq siyahısı hazırlanarkən ölkələrin ordularının şəxsi heyətinin, ehtiyatda olan hərbçilərin, orduya yararlı insanların sayı əsas götürülüb. Bununla yanaşı, orduların arsenalındakı silahların müxtəlifliyi, nüvə potensialı, coğrafi mövqe, təbii ehtiyatlar və ölkənin infrastrukturu nəzərə alınıb.

Siyahıda ilk onluqda ABŞ, Rusiya, Çin, Hindistan, Fransa, Böyük Britaniya, Yaponiya, Türkiyə, Almaniya və Misir orduları yer alıblar.

# Qurban bayramı münasibətilə hərbi hissələrdə "Açıq qapı" günü keçiriləcək

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, sentyabrın 2-də saat 11.00-da Qurban bayramı münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü təşkil olunacaq.*

Həmin gün ziyarətçilər, ictimaiyyət, kütləvi informasiya vasitələrinin nümayəndələri hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə yaxından tanış olmaq, xidməti, inzibati binalara, eləcə də əsgər yataqxanaları və yeməkxanalarına baş çəkmək imkanı əldə edəcəklər.

Müxtəlif hərbi hissələrdə Silahlı Qüvvələrin bütün rəhbər heyətinin iştirakı ilə keçiriləcək "Açıq qapı" günündə valideynlərlə görüşlər təşkil olunacaq, onları maraqlandıran məsələlərin müzakirəsi aparılacaq, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçiriləcəkdir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Zəfər bayramı münasibətilə Bakıda türk şəhidlərinin xatirəsi anılıb



*Türkiyənin ölkəmizdəki səfirliyinin əməkdaşları, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşeliyi, türkiyəli iş adamları avqustun 30-da Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə Şəhidlər xiyabanına gələrək, 1918-ci ildə Bakının bolşevik-erməni daşnak qoşunlarından azad edilməsi uğrunda döyüşlərdə şəhid olmuş, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə canından keçmiş türk şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, önünə əklil qoyublar.*



AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın və Türkiyənin Dövlət himnləri səslənib.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral Zəfər bayramının tarixi barədə danışıb. Şəhidliyin xatirə dəftərini imzalayan səfir bildirib ki, türk xalqı və Türkiyə Silahlı Qüvvələri Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 1922-ci il avqustun 30-da tarixi zəfər qazanıb. Bu böyük qələbə türk millətinin sarsılmazlığının və iradəsinin nümunəsidir. Bütün bunların nəticəsində bugünkü Türkiyə dövləti meydana gəlib. Bir vaxtlar Azərbaycan əsgəri ilə çiyin-çiyinə, Azərbaycanın azadlığı uğrunda mübarizə aparan türk əsgərlərinin bir çoxu Şəhidlər xiyabanında Azərbaycan şəhidləri ilə bir məkanı paylaşırlar.

Səfir qeyd edib ki, türk milləti bu qələbəni əzmkarlıqla qazanıb. Xalqımız bu əzmkarlığın azalmadığını ötən il dünyaya bir daha göstərdi.

Sonra Azərbaycanın azadlığı uğrunda canlarını fəda etmiş türk əsgərlərinin adları və soyadları həkk olunmuş Şəhidlik kitabəsinin üstünə gül dəstələri düzülüb.

Mərasim iştirakçıları, həmçinin Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, şəhidlərin məzarları üzərinə gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklillər qoyublar.

# ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan yeni həmsədri vəzifəsinin icrasına başlayıb

ABŞ Dövlət Departamentinin nümayəndəsi Hizer Noyert Endrü Şoferin ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan yeni həmsədri təyin edilməsi ilə əlaqədar avqustun 28-də bəyanatla çıxış edib.

Bəyanatda deyilir: "Cənab Şofer Avropada və beynəlxalq təşkilatlarda qazandığı böyük iş təcrübəsini özü ilə birlikdə bu vəzifəyə gətirəcək". Bəyanatda qeyd edilir ki, Birləşmiş Ştatlar əvvəlki kimi qəti şəkildə Minsk Qrupu prosesinə və Dağlıq Qarabağ münaqişəsinin dinc yolla və davamlı nizamlanmasına müvəffəq olmaqda tərəflərə kömək göstərməyə tərəfdardır. H.Noyert təsdiq edib ki, ABŞ Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn, o cümlədən Helsinki Yekun Aktının norma və prinsipləri əsasında ədalətli həllini dəstəkləyir. O deyib: "Endrü Şofer tərəflərin bu məqsədə çatmalarına kömək etməyə ümid bəsləyir".

Bəyanatda vurğulanır ki, ABŞ Endrü Şoferin təyinatı barədə Azərbaycan və Ermənistan hökumətlərini məlumatlandırıb. Endrü Şofer yeni vəzifəsinin icrasına dərhal başlayacaq.

Ön xətdən reportaj

# Vətən uğrunda canımızdan keçməyə hazırıq

*Səhər saatları olmasına baxmayaraq günəş öz isti şüalarını yer üzünə saçmağa başlayıb. Gün ərzində havanın hərarətli keçəcəyi məlumdu. Havanın əlverişsiz olmasına baxmayaraq məqsədimiz Vətən keşikçiləri ilə həmsöhbət olmaq, yeni igidlər tanımaqdır. Hər dəfə ezamiyyətə yollanarkən içimi qəribə bir həyəcan bürüyür. Çünki tarix yazacaq qəhrəmanlarla görüşə getdiyimi düşünürəm. Hər dəfə də əsgərlərimizdə olan yüksək əhval-ruhiyyəni hiss edib məmnunluqla geri qayıdıram.*



"N" hərbi hissəsində ilk olaraq aprel döyüşlərində iştirak edən peşəkar zabitlərimizdən biri - Seymur Həbibullahovla görüşürük. Təcrübəli hərbçi aprel döyüşləri zamanı əsgər və zabitlərimizin döyüşə mənəvi-psixoloji cəhətdən hazırlığından, qələbə ovqatında olmasından söz açır.

- Bəli, düşmən təxribatının qarşısını qətiyyətlə alan təcrübəli Azərbaycan əsgəri şanlı qələbəyə imza atdı. Lələtəpə kimi əhəmiyyətli yüksəklik işğaldan azad edildi. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi dövlətimizin səyi ilə yenidən bərpa olundu. Artıq əhali öz dədə-baba yurdlarına qayıtmağa başlayıb. Xalq öz ordusuna güvənir və əmindir



ki, tezliklə ərazi bütövlüyümüz tam bərpa olunacaq.

Sonra zabit Nemət Məmmədovla söhbətləşmək imkanı qazanırıq. O bildirir ki, düşmən atəşkəsi pozmaqda davam etsə də, qorxmaz Azərbaycan əsgəri onlara layiqli cavabını verir. Hər birimiz bu torpaqları müdafiə etməyə borcluyuq. Vətənini sevən, əli silah tutan hər kəs Ali Baş Komandanın döyüş əmri verəcəyi anı səbirsizliklə gözləyir. Bu gün regionda müasir silah və hərbi texnika ilə təchiz edilmiş, yüksək döyüş hazırlığına malik ordumuz var. İqtisadiyyatımızda əldə olunan nailiyyətlər ordumuzun təchizatının yaxşılaşdırılmasına zəmindir. Müasir standartlara cavab verən silah-sursat, əsgər yataqxanaları, tibb məntəqəsi, sinif otaqları hərbi qulluqçularımızın ixtiyarındadır. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Silahlı Qüvvələrə göstərdikləri diqqət və qayğının nəticələri göz qabağındadır. Bu diqqət və qayğı hər bir döyüşçümüzə düşmən üzərində qələbə qazanmaq üçün stimul verir.

Qərargahdan ayrılıb döyüş postuna, gecə-gündüz Vətənimizin keşiyini çəkən qəhrəmanların yanına tələsirik. Bir qədər məsafə qət etdikdən sonra Cocuq Mərcanlı görünür. Ətrafda yurd-yuvasına qayıdan insanları, tikinti-abadlıq işləri aparıldığını görürük. Gözlərimizin gördüyü ürəyimizə təskinlik verir. Artıq sakitlikdir, kənd camaatının firavan həyatı dövlətimizin siyasəti nəticəsində bərpa olunub. Düzdür, 2016-cı ilin aprelinədək bu torpaqlara ayaq basmaq təhlükəli idi. Bildiyimiz kimi bu torpaqlar 1994-cü ilin əvvəllərində ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında keçirilən Horadiz əməliyyatı zamanı işğaldan azad olunsa da, strateji əhəmiyyətli yüksəkliklərin düşmən nəzarətində qalması ərazinin daim atəşə tutulması ilə nəticələnirdi. Ordumuzun şanlı qələbəsi olan aprel döyüşlərində uğurlu əks-həmlə ilə ələ keçirilən Lələtəpə yüksəkliyi bu problemi aradan qaldırdı.

Döyüş postunda ilk olaraq gizir Amid Seyfullayevlə görüşüb ön xətdə son vəziyyətlə maraqlanırıq. Düşmənin daim nəzarət altında olduğunu deyən gizir, istənilən təxribatın qarşısını almağa hazır olduqlarını bildirir.

- Minlərlə gənc hərbi qulluqçu ordu sıralarında xidmət edərək Vətəninin keşiyində durmaqdan qürur hissi keçirir. Vətəni qorumaq, Vətəni sevənlərin borcudur. Əbəs yerə ana Vətən demirik ki, Vətəni sevmək ən ülvi hissdir. Torpaqlarımız işğal altındadı. Bu bizim qaysaqlanmayan yaramızdı. Bu gün cəbhə bölgəsində xidmət etdiyim, Vətənin müdafiəsində payım olduğu üçün sevindiyim qədər, işğalda olan torpaqlarımızın azad olunmasında da payım olacağı üçün sevinirəm.

- Bu gün döyüşçü yoldaşlarımla cəbhə xəttində düşmənlə üz-üzəyik. Üzərimizə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlirik. Əsgərlərin mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Onlar istənilən an erməni qəsbkarlarına layiqli cavab verməyə hazırdırlar, - deyir gizir Amid Seyfullayev.

Gizirin bələdçiliyi ilə döyüş növbətçiliyi aparan əsgərlərimizin yanına yollanırıq. Səngərlə irəlilədikcə vətənpərvər gizir əsgərlərin Vətən sevgisindən, mənəvi-psixoloji hazırlığından söz açır. Təcrübəli əsgərlərdən olan Qasım Katibovun tezliklə xidmətini başa vurub ordu sıralarından tərxis olacağını bildirir və hər belə əsgərin onun xatirəsində silinməz iz qoyduğunu qeyd edir.

Post başçısının haqqında danışdığı əsgərlə mövqedə söhbət edirik. Tuşlayıcı əsgər Qasım Katibov Astara rayonundan hərbi xidmətə çağırılıb. 17 ayın əsgəri xidmətini başa vurmaq ərəfəsində olduğunu desə də, ürəyinin daim döyüşçü yoldaşları ilə birgə döyünəcəyini bildirir.



- Qışın qarında, yayın istisində çiyin-çiyinə dayandığım döyüşçü yoldaşlarımı heç vaxt unuda bilmərəm. Hərbi xidmət dövrü bizi dost, sirdaş etdi. Bizi bağlayan ülfət Vətən sevgisidir. Onu da qeyd edim ki, ordu sıralarından tərxis olunmağım, Vətənə olan borcumu sona yetirməyim deyil. Bundan sonra da arzumun dalınca gedəcəm - gizir olmaq istəyirəm.

Təcrübəli əsgərə bundan sonrakı həyatında uğurlar arzulayaraq səngərlə növbəti mövqeyə irəliləyirik. Atıcı əsgər Taleh Məmmədov diqqətlə düşmən tərəfi nəzarətdə saxlayır. Göygöl rayonundan hərbi xidmətə çağırılan əsgər də başqa yoldaşları kimi ön xətdə xidmətdən qürur duyduğunu bildirir.

- Gənc əsgər hazırlığını bitirdikdən sonra postda xidmət edirəm. Döyüşçü kimi silahların taktiki-texniki xüsusiyyətlərini tam öyrənmişəm. Həm də dözümlü olmağı, qorxmazlığı, Vətən və ana sevgisini dərindən dərk etmişəm. Kimisi üçün bu kəlmələr sadəcə söz ola bilər, amma bizim üçün həyata, canımıza bərabərdi. Vətən uğrunda hər an canımızdan keçməyə hazırıq. Bu yolda şəhidlik nəsibimiz olsa, ruhumuz göylərdə, nəşimiz üçrəngli bayrağa bürünmüş şəkildə çiyinlərdə dolanacaq. Dillərdə əzbər, dastanlara mövzu olacağıq. Çünki bizlər Vətən uğrunda can əsirgəməyən, Qarabağ uğrunda mübariz döyüşçülərik.

Talehin söhbətindən təsirlənirik, adam qürur duyur ki, belə vətənpərvər oğullarla tanış olmağa imkan tapırsan. Növbəti mövqelərin birində isə sərt baxışlı əsgər Elnur Cəfərovla rastlaşırıq. Pulemyotçu əsgərin 14 aydır hərbi xdimətdə olduğunu, döyüş vərdişlərinə tam yiyələndiyini öyrənirik. "Hərbi xidmət sənə nə verib?" sualına əsgər belə cavab verir.

- Şaxtalı-boranlı qış günündə gecənin zülmətində döyüş növbətçiliyi aparmaq adamdan cəsarət, qorxmazlıq tələb edir. Başının üstündə qaranlıq səma, üzərinə yağan qar, əynində hərbi forma, əlində silah və qarşında düşmən. O an keçirdiyin qüruru, fərəhi sözlərlə ifadə etmək çətindir. Hərbi xidmət mənə də döyüş əzminin, əsgəri dostluğun nə demək olduğunu, Vətən uğrunda mübarizə aparmağın sirlərini öyrətdi. Mənim fikrimcə, insanın ürəyində Vətən sevgisi olmasa, cəsur döyüşçü ola bilməz.

Ağstafa rayonundan hərbi xidmətə çağırılan əsgər Ziya Əsədov isə deyir ki, postda hər kəs qardaşın, silahdaşındır. "Azərbaycan xalqı, analarımız, bacılarımız əmin olsunlar ki, onları göz bəbəyimiz kimi qoruyuruq. Vətənimin hər qarışını düşməndən azad etmək üçün son nəfəsimədək döyüşməyə hazıram."

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Qəhrəmana ehtiram

*Müdafiə Nazirliyinin və Ağdam rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ağdam rayonu ərazisindəki "N" hərbi hissəsində "Həyatda qəhrəmanlığa həmişə yer var" devizi altında Azərbaycanın Milli Qəhrəmanı Şövqiyar Abdullayevin anım mərasimi keçirilib.*



AZƏRTAC xəbər verir ki, ictimaiyyət nümayəndələrinin, Qarabağ müharibəsi veteranlarının, əlillərin və şəhid ailələrinin, bölgədə xidmət edən hərbi qulluqçuların iştirak etdikləri vətənpərvərlik tədbirində çıxış edən Müdafiə Nazirliyinin



əməkdaşı, Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbani gənclərin vətənpərvərlik ruhunun, mənəvi-psixoloji hazırlığının yüksəldilməsində qəhrəmanlıq ənənələrinin təbliğinin əhəmiyyətini vurğulayıb.

Tədbirdə Milli Qəhrəmanın mənalı həyat və qəhrəmanlıqla dolu döyüş yolundan bəhs edilib. Bildirilib ki, Şövqiyar Abdullayev 1969-cu ildə Göyçə mahalının Basarkeçər rayonunun Nərimanlı kəndində anadan olub. 1986-cı ildə orta məktəbi əla qiymətlərlə bitirərək, Azərbaycan Politexnik İnstitutuna daxil olub. Birinci kursu bitirdikdən sonra ordu sıralarına çağırılıb. 1989-cu ildə Monqolustanda hərbi xidmətini başa vuraraq Bakıya qayıdıb. 1992-ci ildə cəbhəyə yollanan Ş.Abdullayev Vətənimizin müdafiəsində iştirak edib. O, Ağdamda təşkil edilmiş tank briqadasına komandir təyin edilib. Abdal-Gülablı, Şelli, Papravənd, Pircamal, Aranzəmin və digər kəndlərin müdafiəsində iştirak edib. Döyüşlərdə iki dəfə yaralanmasına baxmayaraq, müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıdıb. 1992-ci il avqustun 27-də döyüşdə yoldaşlarını əsir düşməkdən xilas edən Ş.Abdullayev qəhrəmancasına şəhid olub. Bakıda Şəhidlər xiyabanında dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin 1993-cü il 5 fevral tarixli Fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Bakının küçələrindən biri Şövqiyar Abdullayevin adını daşıyır.

Tədbirdə Ağdam rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Ağdam rayon şöbəsinin sədri Baxşeyiş Hətəmli və başqaları çıxış edərək Azərbaycan əsgərlərinin döyüşlərdəki şücaətlərindən, müharibə veteranlarına və şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışıb, gənclərin vətənpərvərlik ruhunun yüksəldilməsində tədbirin əhəmiyyətini yüksək qiymətləndiriblər.

Azərbaycanın Milli Qəhrəmanı Şövqiyar Abdullayevin ailə üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda Milli Qəhrəman haqqında çəkilən film nümayiş etdirilib, hərbi vətənpərvərlik mahnıları səsləndirilib.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan və Ermənistan dövlət sərhədində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 31-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində növbəti monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru, Saymon Tiller və Martin Şuster keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, onun səhra köməkçiləri Gennadi Petrika və Oqnyen Joviç keçiriblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***31 avqust 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 140 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Fərəhli, Quşçu Ayrım, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Koxanəbi, Muncuqlu, Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Abdinli, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz və Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Aprel döyüşlərində şəhid olan əsgərin xatirə lövhəsi açılıb




*Xətai rayonundakı Cavanşir küçəsində ötən ilin aprel döyüşlərində qəhrəmanlıqla şəhid olmuş Xaliq Əzizzadənin yaşadığı binaya xatirə lövhəsi vurulub.*

Rayon icra hakimiyyətindən AZƏRTAC-a xəbər veriblər ki, Qarabağ müharibəsi veteranları, şəhid ailələri, rayon ictimaiyyətinin nümayəndələri və YAP Xətai rayon təşkilatının üzvlərinin iştirakı ilə həmin münasibətlə keçirilən tədbir mərhum döyüşçünün xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanılıb.

Milli Məclisin deputatları Səməd Seyidov, Qənirə Paşayeva, Adil Əliyev və Fuad Muradov, Xətai rayon İcra Hakimiyyəti başçısının müavini Jalə Abdıyeva və başqaları çıxış edərək vurğulayıblar ki, aprel döyüşləri xalqımızın döyüş ruhunu və iradəsini, Azərbaycan Ordusunun güc və qüdrətini göstərən qəhrəmanlıq tarixidir. Bu tarixi Xaliq və onun kimi Azərbaycan əsgərləri yazıb. Aprel döyüşləri xalqımızın mübarizə əzminin, döyüş qabiliyyətinin və zəfər qazanmaq bacarığının nümayişinə çevrildi. Əbəs yerə deyildir ki, indi gənc nəsillər, torpaqlarımızın gənc müdafiəçiləri onların qəhrəmanlıq yollarını özləri üçün örnək seçərək Vətənin müdafiəsinə yollanırlar.

Natiqlər qeyd ediblər ki, ötən ilin aprelində azad edilən torpaqlarda bu gün yeni qəsəbələr salınır və 20 ildən çoxdur ki, öz yurd-yuvalarından didərgin düşmüş məcburi köçkünlər ilk dəfə olaraq doğma yurd-yuvalarına qayıdırlar. Elə buna görə də bütün Azərbaycan xalqı öz əsgərləri, igidlik göstərib şəhid olan Xaliq kimi oğulları ilə fəxr edir.

# "Milat" qəzetində Ermənistan hərbçilərinin dinc azərbaycanlıları qətlə yetirməsini pisləyən məqalə dərc edilib

Türkiyədə nəşr olunan "Milat" qəzeti təcavüzkar Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin ağır nəticələri barədə məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalə Azərbaycanın İstanbuldakı baş konsulluğu tərəfindən təqdim olunan materiallar əsasında yazılıb.

"Azərbaycanın sülh elçiləri" sərlövhəli məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, o cümlədən Ermənistan hərbçilərinin dinc azərbaycanlıları hədəfə alması barədə müfəssəl məlumat verilib. Yazıda vurğulanıb ki, Ermənistan silahlı qüvvələrinin iyulun 4-də Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndini atəşə tutması nəticəsində 2 yaşlı Zəhranın və onun nənəsi Sahibə Allahverdiyevanın qətlə yetirilməsi insanlıq əleyhinə cinayətdir.

Məqalədə, həmçinin Ermənistan silahlı qüvvələri tərəfindən hər gün atəşkəsin pozulmasına baxmayaraq, məktəbə getməyə məcbur olan azərbaycanlı uşaqların məktublarında parçalar yerləşdirilib. Dinc insanların, eləcə də həmyaşıdlarının qətlə yetirilməsini istəməyən həmin məktub müəlliflərinin sülh arzularını təqdim edən "Milat" qəzeti onları "Azərbaycanın sülh elçiləri" kimi təqdim edib.

# Zərdabda "Hərbi şöhrət gecəsi"

*Zərdabda Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmovun doğum gününə həsr olunan "Hərbi şöhrət gecəsi" keçirilib.*

AZƏRTAC xəbər verir ki, bu münasibətlə cəbhəyanı bölgələrdə xidmət edən bir qrup hərbçinin Zərdab şəhərinə səfəri təşkil olunub. Yeni nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin, ordu-cəmiyyət münasibətlərinin gücləndirilməsi məqsədilə keçirilən tədbir böyük maraqla qarşılanıb.

Səngərdən birbaşa Zərdab şəhərinə yollanan əsgərləri rayon ictimaiyyətinin nümayəndələri, fidan körpələr səmimi hisslərlə, çiçək dəstələri ilə qarşılayıblar. Azərbaycan Ordusunda xidmət keçən hərbçilər ilk öncə ümummilli liderimiz Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edərək, abidəsi önünə gül dəstələri qoyublar. Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.





"Hərbi şöhrət gecəsi" Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmovun büstü önündə təşkil edilib.

Tədbirdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbani çıxış edərək ön səngərdə, düşmənlə üz-üzə xidmət edən bir qrup əsgər və zabitin mərasimlə əlaqədar Zərdab rayonuna gəldiyini bildirib. A.Qurbani Məlik Məhərrəmovun keçdiyi döyüş yolu barədə ətraflı məlumat verib, onun misilsiz şücaətləri ilə hərbçilərimizə örnək olduğunu söyləyib.

Tədbirdə Lələtəpə döyüşlərinin iştirakçıları çıxış edərək hər an Ali Baş Komandanın əmrlərinə hazır olduqlarını bildiriblər.

Rayon icra hakimiyyəti başçısının birinci müavini Rəhman Feyzullayev də qeyd edib ki, Məlik Məhərrəmovun mənalı həyat yolu hər bir azərbaycanlı gənc üçün nümunədir. O, zərdablıların İkinci Dünya müharibəsində, Qarabağ döyüşlərində göstərdiyi şücaətdən danışıb.

"Hərbi şöhrət gecəsi"ndə zərdablı körpələr Vətənimizi, ordumuzu tərənnüm edən şeirlər söyləyiblər.

Sonda Abdulla Qurbaninin müəllifi olduğu "Lələtəpə" kitabı məktəblilərə təqdim edilib.

# Əsgərlərimiz yüksək vətənpərvərlik ruhuna malikdirlər

*Gəncə şəhərində xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan park-kompleksin anfiteatrında böyük qələbəlik, izdiham var. Şəhər ictimaiyyətinin nümayəndələri, hərbi qulluqçular, gənclər buraya toplaşıblar.*

Gəncə Qarnizonu Zabitlər Evinin yaranmasının ildönümünə həsr olunmuş təntənəli mərasim ulu öndər Heydər Əliyevin, Vətənimizin azadlığı və suverenliyi uğrunda şəhid olanların xatirəsini yad etməklə başlandı.

Tədbirin aparıcısı Zabitlər evinin yaranması və fəaliyyəti haqqında məlumat verdi. Bildirildi ki, əsgər və zabitlərin vətənpərvərlik ruhunun yüksəldilməsində, döyüş əzminin artırılmasında bu kollektivin də xidmətləri az deyil. Təbliğat, təşviqat vasitələrinin hazırlanmasında, ideoloji mərkəz və guşələrin yaradılmasında, hərbi qulluqçuların ailə üzvlərinin asudə vaxtlarının səmərəli təşkilində kollektiv öz əməyini əsirgəmir. Yaradıcı kollektivin üzvləri Beyləqan, Füzuli, Tərtər, Xocavənd, Şəmkir, Gədəbəy, Göygöl, Bərdə və başqa bölgələrdə də mədəni kütləvi tədbirlərin, yaradıcılıq müsabiqələrinin keçirilməsində fəal iştirak edirlər. Onların təşəbbüsü ilə tarixi və əlamətdar günlər, milli bayramlar geniş miqyasda qeyd edilir.

"Vətən uğrunda" səyyar təşviqat dəstəsinin fəaliyyəti də həmişə yüksək qiymətləndirilir. Cəbhə bölgələrinə səfərlər edən dəstə üzvləri ön xətdə xidmət edən hərbi qulluqçularla yaddaqalan görüşlər keçirirlər. Bu görüşlər hərbi qulluqçuların Vətənə, torpağa olan məhəbbət hissini daha da artırır.

Ötən ilin aprel döyüşləri zamanı da Zabitlər evinin fəaliyyəti yüksək qiymətləndirilib. Xalqımıza qələbə sevinci yaşadan igid döyüşçülər haqqında video-çarxlar, filmlər sosial şəbəkə izləyicilərinin böyük marağına səbəb olub və ordu ilə xalqın yenilməz birliyinin ifadəsinə çevrilib.

Ön xətdə xidmət edən hərbi qulluqçuların ölkəmizin müxtəlif guşələrinə səfərləri də Zabitlər evinin təşəbbüsü ilə həyata keçirilib. Onlar xalqımızın qədim tarixi, incəsənəti və mədəniyyəti, hərb tarixi ilə yaxından tanış olublar.



Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar Təşkilatının sədri Abiyat Ağadadaşova, Prezidentin fərdi təqaüdçüsü, Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbani, Gəncə şəhəri İcra Hakimiyyəti başçısının müavini Sevda Qurbanəliyeva və başqaları çıxış edərək ordumuzun yenilməzliyini, hərbi qulluqçuların yüksək vətənpərvərlik hisslərinə malik olmalarını, Vətən torpaqlarının azadlığı uğrunda Ali Baş Komandanın əmrini yerinə yetirməyə qadir olduqlarını bir daha diqqətə çatdırdılar.

Sonra Zabitlər evinin əməkdaşlarına fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim edildi.

Azərbaycan Respublikasının Xalq artisti Azərinin Vətənə, orduya, vətənpərvərliyə dair oxuduğu mahnılar, digər musiqi nömrələri və rəqslər rəğbətlə qarşılandı.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan şikayətlərin sayına görə birinci yerdədir

*Bütün sahələrdə iflasa uğrayan Ermənistanda hökm sürən qanunsuzluq mühiti narazı insanların sayını artırıb. Buna görə də işğalçı ölkə Avropa İnsan Hüquqları Məhkəməsinə göndərilən şikayətlərin sayına görə birinci yerdədir.*

AZƏRTAC xəbər verir ki, Ermənistan Avropa Şurasına üzv olan dövlətlər arasında bu qurumun insan hüquqları məhkəməsinə ən çox müraciət edilən ölkədir. Bu hesabat əhalinin hər 100 min nəfərinə düşən şikayətlərin sayına görə aparılıb. Ermənistanın hüquq müdafiəçisi Vahi Qriqoryan bildirib ki, təqdim olunan statistik göstəricilər ermənilərin məhkəmə sisteminə inamsızlığını bir daha təsdiqləyib. İşğalçı ölkədə vəkillər də məhkəmədən və hakimlərdən narazıdırlar. Bu səbəbdən də hüquq müdafiəçiləri İrəvanda aksiya keçirməyə hazırlaşırlar. Onlar əsasən məhkəmə zalına girişdə üzərlərində aparılan yoxlamalara etiraz edirlər. Bu barədə vəkil Ayuk Alumyan məlumat verib. Onun sözlərinə görə, belə davranış nəinki qeyri-qanuni, həm də təhqiredicidir. Alumyan deyib ki, sonuncu dəfə məhkəmə məmurları ilə bununla bağlı mübahisəsi düşüb və o, müdafiə edəcəyi şəxsin məhkəmə iclasına buraxılmayıb. Vəkil Ermənistanda ilin əvvəlindən hüquqşünaslara qarşı görünməmiş təzyiqlər başlandığını da söyləyib.

# Milli Məclisin parlamentlərarası dostluq qrupunun üzvləri Kanada qanunverici orqanına müraciət ediblər

*Bəzi erməni kütləvi informasiya vasitələrində Kanada parlamentinin üzvlərinin də daxil olduğu nümayəndə heyətinin Ermənistanda səfərdə olması və Dağlıq Qarabağa gedəcəkləri ilə bağlı məlumat yayılıb.*

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Azərbaycan-Kanada parlamentlərarası dostluq qrupunun rəhbəri Fuad Muradov bununla bağlı bəyanat verib.

Bəyanatda deyilir ki, özünü Kanada nümayəndə heyətinin rəhbəri kimi təqdim edən Məcid-əl-Şəfi adlı şəxs bir neçə nəfərlə Ermənistanda səfərdədir. O, özü Kanada parlamentinin üzvü olmasa da, mətbuatda "Kanada parlamentinin nümayəndə heyətinin rəhbəri" kimi təqdim olunub.

"Azərbaycan-Kanada parlamentlərarası dostluq qrupu olaraq öz həmkarlarımıza müraciət edərək bildiririk ki, sözügedən "nümayəndə heyəti"nin tərkibində Konservativ partiyanın üzvü Toni Klement adlı deputat da var. Əldə etdiyimiz məlumata görə, həmin "nümayəndə heyəti" Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etməyi planlaşdırır. Biz Kanada parlamentinə müraciət edərək beynəlxalq hüquq və normalara hörmətlə yanaşmağı, Toni Klement kimi insanlara bu cür səfərlərin qadağan olduğunu izah etməyi, sülh və sabitliyin pozulmasına yönəlmiş qızışdırıcı mövqeyindən əl çəkməsini tələb edirik. İnanırıq ki, Azərbaycan-Kanada əməkdaşlığı naminə, eyni zamanda, beynəlxalq qanunlara riayət edərək belə məsuliyyətsiz addımlar atılmayacaq. Bir daha bəyan edirik ki, Azərbaycan regionda sülhün və sabitliyin qorunub saxlanmasının tərəfdarıdır", - deyə bəyanatda qeyd edilir.

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** Müasir cəmiyyətdə dinin rolu və yeri. Azərbaycanda islami dəyərlərin bərpası. Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir.

**Suallar:**
**1. Müasir cəmiyyətdə dinin rolu və yeri.**
**2. Azərbaycanda islami dəyərlərin bərpası.**
**3. Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir.**

*Müasir cəmiyyətdə dinin rolu və yeri*

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, din dövlətdən, dövlət də dindən ayrıdır. Buna görə də dövlətin sosial, siyasi, iqtisadi və hüquqi fəaliyyətini müəyyən edən qanunlar qəbul edilərkən, dinin bu mövzudakı əmr və qadağaları deyil, sosial ehtiyacları nəzərə alınır. Dövlət quruluşunun əsası olan dünyəvilik din və vicdan azadlığını dövlət tərəfindən təminat altına alır. Həqiqi din azadlığı ancaq dünyəvi bir dövlətdə reallaşa bilər. Bu səbəbdən də, dövlət öz vətəndaşlarını və cəmiyyəti zərərli, fanatik və radikal dini-siyasi qrup və təşkilatlardan qoruyur.

Şərq müdrikliyi və Qərb rasionallığından öz payını alan Azərbaycan, cəmiyyətdə multikultural və tolerant dəyərləri daim əsas götürüb. Bu baxımdan, multikulturalizm cəmiyyətdə bütün dinlər, millətlər, milli azlıqlar və mədəniyyətlərin bir arada tolerant münasibətlər içərisində birgəyaşayışıdırsa, o zaman Azərbaycan nümunə olacaq multikultural bir ölkədir. Çünki Azərbaycan çoxdinli, çoxkonfessiyalı ölkələrdən biridir.

Azərbaycanda din-dövlət, eyni zamanda cəmiyyət-dövlət münasibətləri milli-mənəvi dəyərlərə yanaşı, həm də multikultural dəyərlərə əsaslanan azərbaycançılıq ideologiyası kontekstində tənzimlənir. Bu baxımdan, cəmiyyətə sağlam təfəkkürlü, dərin dini-fəlsəfi dünyagörüşünə, bədii-etik təfəkkürə və yüksək estetik zövqə malik olan vətəndaş yetişdirmək lazımdır. Bu da dövlətin düşünülmüş, planlı və uzaqgörən siyasətinə bağlıdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cəmiyyətdə dinin böyük rolu və yeri olduğunu öz çıxışında belə qeyd etmişdir: "Dinin cəmiyyət həyatında, xüsusən də gənclərin mənəvi-əxlaqi tərbiyəsində yeri və rolu düzgün istiqamətləndirilməli, mütərəqqi islami dəyərlərin təbliqi və təşviqi müasir tələblər səviyyəsində aparılmalı, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməlidir. Bütün bunlar müasir mərhələdə Azərbaycan Respublikasının daxili və xarici siyasətinin, demokratik dünya birliyi ilə əməkdaşlıq münasibətlərinin prioritet xəttini təşkil edir. Ölkəmiz bu sahədə nüfuzlu beynəlxalq və regional təşkilatlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatında uğurla fəaliyyət göstərir. Son illərdə MDB Dinlərarası Şurasının, MDB müsəlmanlarının Məşvərət Şurasının, Qafqaz xalqları Ali Dini Şurasının toplantılarının, xüsusən dünya dini liderlərinin sammitlərinin Bakıda keçirilməsi Azərbaycandakı dini sabitliyi, tolerantlıq mühitini, əqidə və ifadə azadlığını bütün dünyaya bir daha bariz şəkildə nümayiş etdirmişdir. Azərbaycan dövləti dinlərarası dialoqun dinamik inkişafına müsbət təsir göstərən bütün səyləri bundan sonra da dəstəkləyəcəkdir".

*Azərbaycanda islami dəyərlərin bərpası*

Son 20 ildə respublikamızda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini-mənəvi dəyərlərin potensialından səmərəli və məqsədyönlü istifadə olunması ilə bağlı görülən böyük işlərin mahiyyətini düzgün başa düşmək üçün müstəqillik dövrünün ilk illərində ölkənin dini durumuna qısaca nəzər salmaq kifayətdir.

Müstəqilliyimizin ilk illərində Azərbaycan cəmiyyəti üçün həyatın bütün sahələrində olduğu kimi din sahəsində də müəyyən pərakəndəlik səciyyəvi idi, 70 illik Sovet rejimi dövründə insanların zehnindən dini sıxışdırıb çıxarmaq məqsədilə çox iş görülmüşdü. İfrat dərəcədə stereotiplər bütövlüklə materialist dünyagörüşünə əsaslanan əxlaqi tərbiyə sistemi yaradılmasına yönəldilmişdi. Vəziyyətdən sui-istifadə etmək istəyənlər də fürsəti əldən vermədilər. Ölkədə qeyri-ənənəvi dinləri, destruktiv sektaları yaymaq məqsədi güdən bir sıra xarici missioner təşkilatların fəaliyyəti geniş vüsət aldı. Erməni təcavüzü nəticəsində ölkə ərazisinin bir hissəsinin işğal edilməsi, bir milyonluq qaçqın və köçkünlər ordusunun yaranması ilə bağlı sosial gərginlik şəraitində bu hal, həqiqətən, cəmiyyətimizin, xalqımızın gələcəyi, onun müasir millətlər toplusuna daxil olması yolunda ciddi əngəllər törədirdi. Din ölkədə müxtəlif siyasi qüvvələrin süni surətdə yaratdığı qarşıdurmaya cəlb edilir, ayrı-ayrı bölgələrdə separatizm cəhdlərində ortaya atılan şüarlarda dindən siyasi məqsədlərlə istifadə etmək meyli, dini dözümsüzlük əhval-ruhiyyəsi özünü büruzə verirdi.

Xalqı bu cür çətin şəraitdən yalnız yüksək dövlətçilik təcrübəsi olan bir lider çıxara, vəziyyəti düzgün qiymətləndirib dönüş yarada bilərdi. Yalnız ulu öndər Heydər Əliyev öz dərin biliyi, yüksək bacarığı, mətin iradəsi, böyük idarəçilik təcrübəsi, düzgün və uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərini öz təbii məcrasına qaytara, dövlətin strateji xəttinə əsasən tənzimləyə bilərdi.

Prezident məscidlərə gedir, dini mərasimlərdə iştirak edir, dövlətin strateji xəttini əhaliyə izah edirdi. Ümummilli Lider çıxışlarının birində bildirirdi ki, Azərbaycanın strateji yolu demokratik, hüquqi, dünyəvi dövlət quruculuğundan keçir. 1-2 oktyabr 1998-ci ildə Bakıda keçirilən "Müasirlik və dini-mənəvi dəyərlər" adlı beynəlxalq konfransda ümummilli lider Heydər Əliyev dünyəvi dövlətdə etiqad azadlığı prinsipini daha geniş açıqlayaraq demişdir: "Dövlətimiz insanlara bütün azadlıqları vermiş və vicdan azadlığını, din azadlığını öz siyasətinin əsas hissəsi hesab etmişdir. Azərbaycan Respublikasının Konstitusiyası (18, 48-ci maddələr) din və vicdan azadlığını təsbit etmiş, biz isə bir dövlət kimi bunun təmin olunmasının qarantıyıq. Bəli, ona görə də bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik".

Azərbaycan tarixən tolerantlıq, dini dözümlülük ənənələri ilə fərqlənsə də, tam qətiyyətlə deyə bilərik ki, beynəlxalq standartlara cavab verən tolerantlıq ölkəmizdə məhz ümummilli lider Heydər Əliyevin xidmətləri sayəsində yaranıb. Çıxışlarının birində Ümummilli Lider qeyd etmişdir: "Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir".

Bu gün Azərbaycanda dini zəmində münaqişələrin olmaması insanların sərbəst olaraq öz əqidə formasını seçməsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri tərəfindən etiraf olunması ümummilli lider Heydər Əliyevin dini sahədə balanslaşdırılmış siyasət yürütməsinin və həmin siyasətin bu gün də layiqincə davam etdirilməsinin nəticəsidir.

*Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir*

Azərbaycan xalqı bəşəriyyətə nümunə olan mənəvi keyfiyyətlərə malikdir. Bunlardan biri də əsrlərdən bəri formalaşaraq inkişaf edən, xalqımızın humanist dünyagörüşünü özündə əks etdirən multikultural və tolerant dəyərlərdir. Təsadüfi deyil ki, tarixin bütün dönəmlərində bu coğrafiyada müxtəlif etnoslar, xalqlar, ayrı-ayrı dinlərə sitayiş edən insanlar əmin-amanlıq, mehriban qonşuluq şəraitində yaşamışlar. Müxtəlif illərdə dünyanın bir çox yerlərində milli və dini zəminlərdə qarşıdurmalar baş vermiş, insanlığa, bəşəriyyətə qarşı ağır cinayətlər törədilmişdir. Lakin Azərbaycanda yaşayan xalqlar arasında heç vaxt milli-etnik və dini zəmində ədavət baş verməmiş, bu məqsədlə kənardan edilən cəhdlər iflasa uğramışdır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində ölkəmizdə mədəniyyətlər və dinlərarası dialoq keyfiyyətcə yeni mərhələyə yüksəldildi, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə hüquqi zəmin yaradıldı. Ulu Öndərin müəllifi olduğu Azərbaycan Konstitusiyasında ölkəmizdə dinindən, irqindən, dilindən asılı olmayaraq hər bir vətəndaşın hüquq və azadlıqları, o cümlədən insanların etiqad azadlığı təsbit olundu. Azərbaycan üçün əsas mühüm xüsusiyyətlərdən biri isə ondan ibarətdir ki, bu ölkə bütün islam aləmində dünyəvi dövlətçiliyin nadir modellərindən biridir. Ölkədə xristian pravoslav kilsəsinin fəaliyyətinin bərpası, Bakıda katolik kilsəsinin inşa olunması və s. tolerantlığın bariz nümunəsidir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında xalqımızın multikultural və dini-mənəvi dəyərlərinin qorunması, inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasət yeni mərhələdə onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Dövlət başçısı mütəmadi olaraq ölkəmizdə yaşayan xalqların, dini icmaların nümayəndələri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır, milli və dini bayramlarını təbrik edir.

2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunması bu sahəyə diqqəti daha da artırır və eyni zamanda, dünyanı alternativi olmayan multikulturalizm və tolerantlıq siyasətindən daha effektiv şəkildə faydalanmağa dəvət edir. 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi multikulturalizm və tolerantlığın Azərbaycan xalqının həyat tərzi olması ilə yanaşı, dövlət siyasətində prioritet istiqamət olduğunun göstəricisidir.

Azərbaycan xalqının zəngin multikulturalizm təcrübəsi, mənəvi tolerant keyfiyyətlərə sahib olması beynəlxalq səviyyədə də tanınır və yüksək qiymətləndirilir. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Azərbaycanda keçirilməsi barədə beynəlxalq təşəbbüs bir daha onu göstərir ki, multikultural və tolerant ənənələrə sadiq olan Azərbaycanın mədəniyyətlərin dialoqunun inkişafı, dini-mədəni müxtəlifliyin qorunub saxlanması, sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsi sahəsində zəngin təcrübəsi bütün dünyada qəbul olunur. Bu nəticələrin əldə olunmasında öz xeyirxah əməlləri ilə tolerant və eləcə də əsl islami dəyərləri təlqin edən, bəşəriyyəti mərhəmətə, qarşılıqlı köməyə, sülhə çağıran Azərbaycan Respublikasının 1-ci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın da böyük xidmətləri var. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bu istiqamətdə həyata keçirdiyi tədbirlər, apardığı maarifləndirmə kampaniyaları da bu baxımdan təqdirədicidir.

Azərbaycanda yaşayan bütün millətlərin və dinlərin nümayəndələrinin dövlətçiliyimiz naminə daim həmrəylik nümayiş etdirmələri xalqımızın yüksək multikultural və tolerant dəyərlərə malik olmasının bariz nümunəsidir. Ölkəmizin inkişafı, qüdrətlənməsi ilə yanaşı, ərazi bütövlüyümüzün qorunmasında da burada yaşayan bütün xalqların və dinlərin nümayəndələri hər zaman qəhrəmanlıq və vətənpərvərlik nümunələri ortaya qoyublar. Biz 2016-cı ilin aprelin əvvəllərində bunun bir daha şahidi olduq. Cəbhə xəttində erməni təxribatlarına qarşı Azərbaycan Ordusunun apardığı hərbi əməliyyatlarda ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələri də əsl qəhrəmanlıq nümunələri göstərdilər. Onların arasında şəhidlik zirvəsinə ucalanlar oldu. Bir daha təsdiq olundu ki, Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bu torpağı canı qədər sevir və uğrunda ölməyə hazırdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqımızın tolerantlıq keyfiyyətindən sui-istifadə edən, dövlət səviyyəsində etnik təmizləmə və işğalçılıq siyasəti aparan Ermənistanın hələ də Azərbaycana qarşı təcavüzünün davam etdiyini bildirib: "Əfsuslar olsun ki, bəzi tendensiyaları bizim regionda - Yaxın Şərqdə görürük. Azərbaycan nadir ölkələrdəndir ki, Avropa Şurası ölkələri və islam əməkdaşlıq ölkələri nümayəndələrini Bakıya toplayıb. Multikulturalizm dövlət siyasətimiz və həyat tərzimizdir. Azərbaycanda bütün azadlıqlar təmin edilir. Mətbuat azadlığı, sərbəst toplaşmaq, dini, söz azadlığı təmin edilir. Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqları işğal edildi. Bunun nəticəsində 1 milyondan çox qaçqınımız var. Baxın görün, biz Bakıda erməni kilsəsini bərpa etmişik. Lakin bizim işğal olunan ərazilərdə məscidlərimiz dağıdılıb".

Multikulturalizm bu gün, məhz Azərbaycanın dövlət siyasəti olaraq dini, cinsi, etnik və milli müxtəlifliklərin qorunması və inkişafına yönəlib. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Bu gün multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, həyat tərzidir" - deyərək multikulturalizmi Azərbaycanın dövlət siyasəti olmasını təsadüfün deyil, əksinə, qədim dövrlərdən üzü bu yana xalqımızın həyat tərzi kimi xarakterizə etmişdir.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

Örnək

# Şəhidlik əlçatmaz zirvədir

*Kiminsə naminə canından keçmək cəsarəti insanlarda anadangəlmə hiss və duyğudur. Hər bir insanda təzahür etməyən fərqli xüsusiyyət məqamı yetişəndə mütləq özünü büruzə verir. Mərdlik, vətənpərvərlik kimi keyfiyyətlər insanın daxili gücünün, qətiyyətinin, bəzən də barışmazlığın, ədalətsizliyə qarşı mübarizliyin nümunəsi kimi meydana çıxır. Belə fədakarlığın son məkanı isə müqəddəs amal - şəhidlikdir.*




Bəli, insan üçün ən müqəddəs duyğu Vətəni sevmək, qoynunda böyüdüyü torpağın müqəddəsliyini hiss edib yolunda canından keçməyə hazır olmaqdır. Bu yerdə başa düşürsən ki, torpağı Vətənə çevirən - onun övladlarıdır.

Örnək ola biləcək belə övladlarımız çoxdur. Onların sırasına aprel döyüşlərində torpaq uğrunda canını qurban verən oğullarımız da qatıldılar. Onlar ərazi bütövlüyümüz və dövlətimizin müstəqilliyi naminə döyüşərək qəhrəmancasına həlak oldular. Qəhrəman igidlərimiz şərəfli ömür yaşadılar və gələcək nəsillərə örnək oldular.



Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti bu qəhrəmanlarımızın ömür yolunu özlərinə örnək seçib. Hərbi qulluqçularımızın tez-tez aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət etməsi dediklərimizin sübutudur.

Sonuncu belə ziyarətlərdən biri şəxsi heyətlə iş üzrə məsul zabitlər Namiq Cavadov və Seymur Həbibullahovun iştirakı ilə "N" hərbi hissəsində həyata keçirilib.

Polkovnik-leytenant Namiq Cavadov aprel şəhidlərinin xatirəsinə ucaldılan abidənin önündə çıxışı zamanı bildirib ki, torpaqlarımızın qorunması yolunda canlarından keçmiş şəhidlərimizin hünəri gənclərimizə örnəkdir. "Hər bir Azərbaycan vətəndaşı öz milli qəhrəmanlarını tanımalı, onların keçdiyi həyat yolunu özünə örnək bilməlidir. Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhid olmaq ən böyük şərəf və qürurdur", - deyə zabit bildirib.

- Şəhidlərin xatirəsini yaşatmaq, onları gəncliyə nümunə göstərmək isə hər kəsin vətəndaşlıq borcudur, - deyə polkovnik-leytenant Seymur Həbibullahov da öz çıxışında şəhidlərimizin yeni bir tarix yazdıqlarını diqqətə çatdırıb: "Hər birimiz Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla mübarizə aparan, xalqımızın azadlığını hər şeydən uca tutan, bu yolda həyatlarını qurban verərək ən uca zirvəyə - şəhidlik məqamına ucalanların xatirəsini anmağa həmişə borcluyuq. Çünki torpaqlarımızın bütövlüyü, ərazilərimizin toxunulmazlığı uğrunda canlarından keçən bu Vətən övladları sonsuz ehtirama, sevgi və məhəbbətə layiqdirlər".

Onlar öz həyatlarını Vətəni, torpağı, milləti, dövləti üçün heç düşünmədən fəda edənlərdi. Onlar ad-san, şan-şöhrət üçün vuruşmurdular, müqəddəs amal - Vətənimizin toxunulmazlığı uğrunda vuruşurdular. Bir ailənin övladlığından çıxan, elin övladına çevrilən oğullarımızı bütün Azərbaycan xalqı yad edir və müqəddəs ruhları qarşısında ehtiramla baş əyir.

Rahat uyuyun, oğullarımız, əməlinizlə örnək olduğunuz nəsillər dəyişəcək, siz ürəklərdə əbədi yaşayacaqsınız!

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

## Ermənistan ordusunda hərbi qulluqçunun vəhşicəsinə döyülməsi faktı gizlədilir

İşğal edilmiş Ağdərə istiqamətindəki Ermənistan ordusunun təlim mərkəzində baş verən insident nəticəsində poliqonun hərbi qulluqçusu Artur Bağdasaryan xidmət yoldaşları tərəfindən vəhşicəsinə döyülüb.

AZƏRTAC Ermənistanın sosial şəbəkələrinə istinadən xəbər verir ki, üzərində çoxlu döyülmə izləri olmasına və müxtəlif dərəcəli bədən xəsarətləri almasına baxmayaraq, komandiri A.Bağdasaryanın hospitala yerləşdirilməsinə icazə verməyib və baş vermiş olayın gizlədilməsi üçün lazım olan bütün tədbirlər görülüb. Kazarmada müxtəlif bəhanələrlə saxlanılan hərbi qulluqçunun sağalana qədər valideynləri ilə görüşməsinə də imkan verilmir.

Qeyd edək ki, Ermənistan ordusunun Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən hissələrində son iki ay ərzində 10-dan çox nizamnamədən kənar münasibətlər zəminində cinayət hadisəsi baş verib. Belə hadisələr zamanı ən çox xəsarət alanlar isə gənc əsgərlər, xüsusilə də Ermənistandan Qarabağa gətirilənlərdir.

## Aprel şəhidinə həsr olunan "Seysulanda döyüş" kitabının təqdimatı keçirilib

*Avqustun 28-də Beynəlxalq Mətbuat Mərkəzində tarixçi-publisist Təranə Cəbiyevanın aprel şəhidi Rəşad Niftalılıya həsr olunan "Seysulanda döyüş" kitabının təqdimatı keçirilib.*

Tədbir iştirakçıları əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman oğul və qızlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

AZƏRTAC xəbər verir ki, mərasimdə yazıçı-publisist Təranə Cəbiyeva Rəşad Niftalılının döyüş yolundan söz açıb. Vurğulayıb ki, Vətənin ərazi bütövlüyü uğrunda şəhid olanların hər biri qəhrəmanlıq məktəbidir. Onların xatirəsini əbədiləşdirmək, ailələrinə arxa olmaq hamının vətəndaşlıq borcudur: "Aprel döyüşlərində tarixi canıyla, qanıyla qazanan Milli Ordumuz, onun qəhrəman zabitləri və əsgərləri oldu. Biz onlarla qürur duyuruq. Aprel döyüşlərində Qarabağın bir parçası olan Seysulanın azad edilməsində Rəşadın misilsiz xidməti təkcə ailəsi üçün deyil, xalqımız üçün böyük qələbədir. Bu döyüşlərdə Rəşad kimi oğullar düşməni məhv edərək, qanları bahasına tarixi ərazilərimizə sahib çıxdılar. Belə qəhrəmanlarımızın xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq".

Şəhidlərin xatirəsinə həsr olunan belə tədbirlərin keçirilməsinin vacibliyini qeyd edən Milli Məclisin deputatı Fuad Muradov aprel döyüşlərinin tarixi əhəmiyyətindən danışıb: "Ermənilərin on illər ərzində xalqımıza qarşı amansızlığının, siyasi-etnik təcavüzünün şahidi olmuşuq. Bizim igid oğul və qızlarımız Vətənimizin ərazi bütövlüyü uğrunda, vətəndaşlarımızın firavan yaşaması naminə şəhid olublar. Bunu yaddaşlara həkk etməliyik ki, bizim gələcək nəsillər Rəşad kimi böyüsün, Vətənini sevsin".

Tədbirdə Bakı şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova, Xətai rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov çıxış edərək yeni nəşrin tərbiyəvi-psixoloji əhəmiyyətindən danışıblar. Vurğulanıb ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi, ordumuzun qüdrəti və bütün soydaşlarımızın həmrəyliyi düşmənə layiqli cavab oldu.

Oğlu ilə qürur duyduğunu deyən Şakir Niftalıyev övladının vətənpərvərliyindən, mərdliyindən danışıb və tədbirin təşkilatçılarına təşəkkürünü bildirib.

# Xəbərlər: hadisələr, faktlar

### İstanbulda İŞİD-in 6 üzvü həbs olunub



Türkiyənin İstanbul şəhərində İŞİD terror təşkilatına qarşı əməliyyat təşkil edilib, 6 nəfər həbs olunub.

Təhlükəsizlik xidmətinin əməkdaşları Suriyada müharibə zonasında və əvvəllər terror təşkilatının sıralarında olan şübhəlilərin evlərinə eyni zamanda basqın təşkil ediblər.

### Liviya hərbçiləri Aralıq dənizində 450-dən çox miqrantı xilas ediblər



Liviyanın sahil mühafizə xidmətinin əməkdaşları Aralıq dənizində 450-dən çox miqrantı xilas ediblər.

Bu barədə Reuters agentliyi Liviya hərbi dəniz qüvvələrinə istinadla məlumat yayıb.

Sahil mühafizə xidməti Tripolidən qərbdə 140 miqrantı, Sabrata şəhəri yaxınlığında isə 7-si qadın, 6-sı uşaq olmaqla 164 miqrantı xilas edə biliblər. Həmçinin təqribən 150 nəfərdən ibarət daha bir qrupun xilas edildiyi bildirilib. Miqrantlar Misir, Mərakeş və Tunisin vətəndaşlarıdır.

### Dünyanın ən hündür binalarından biri Polşada tikiləcək



Polşada dünyanın sayca 4-cü ən hündür binası tikiləcək.

"Varso Tower" (Varşava qülləsi) adlandırılan binanın Varşava şəhərində tikintisinə başlanılıb. Qüllə dünyanın ən tanınmış arxitektura şirkətlərindən biri - "Foster+Partners" tərəfindən layihə edilib. Binanın 2020-ci ildə istifadəyə verilməsi nəzərdə tutulub. Sahəsi 140 min kvadratmetr olacaq qüllənin hündürlüyü 300 metrdir.

### Rakka şəhərinə hava hücumu nəticəsində 27 nəfər həlak olub



Suriyanın şimalında İŞİD terror təşkilatının nəzarəti altında olan Rakka şəhərinə beynəlxalq koalisiya qüvvələri tərəfindən hava hücumları təşkil olunub. Nəticədə 27 mülki şəxs həyatını itirib.

ABŞ-ın rəhbərlik etdiyi koalisiya qüvvələri son 48 saat ərzində Rakka şəhərinə 133 hava zərbəsi endirib.

Qeyd edək ki, şəhərə edilən hücumlar səbəbindən indiyədək təxminən 450 min vətəndaş evlərini tərk etmək məcburiyyətində qalıb.

### Moskvada beynəlxalq hərbi musiqi festivalı keçirilir



Moskvada dünyanın ən böyük beynəlxalq hərbi musiqi festivallarından olan "Spasskaya qülləsi" Hərbi Musiqi Festivalı keçirilir.

Anadolu agentliyinin məlumatına görə, festivalda 40 ölkədən olmaqla 140 hərbi orkestr iştirak edir. Moskvanın tarixi "Qızıl meydan"ında gerçəkləşən festival sentyabrın 3-dək davam edəcək.

### Yəmən sahillərində ABŞ-a məxsus helikopter qəzaya uğrayıb



ABŞ Silahlı Qüvvələrinə məxsus helikopter Yəmən sahillərində qəzaya uğrayıb.

Helikopterin içərisində olan beş hərbçinin axtarışları davam etdirilir. Qəzanın mümkün səbəbləri barədə məlumat verilmir.

Qeyd edək ki, ABŞ Silahlı Qüvvələri müntəzəm olaraq Yəməndə "Əl-Qaidə" terror qruplaşmasına qarşı əməliyyat həyata keçirir.

**AZƏRTAC-ın materialları əsasında**

*Fiziki hazırlıq*

# İdman sağlamlığın təməlidir

*İdman hər kəsin sağlamlığında olduqca böyük əhəmiyyət kəsb edir. Döyüşdə uğur əldə etməyi qarşısına məqsəd qoyan şəxsi heyətin fiziki-psixoloji hazırlığında da idman vacib şərtdir. "N" hərbi hissəsində şəxsi heyətin fiziki hazırlığı ilə maraqlandım.*



İdman şəhərciyində şəxsi heyətin fiziki hazırlığı ilə məşğul olan gənc zabit Orxan Mahmudovla həmsöhbət oluruq. “Silahlı Qüvvələrimizin rəhbərliyinin göstərdiyi diqqət və qayğı nəticəsində müasir standartlara uyğun formalaşdırılan idman şəhərciyi hərbi qulluqçularımızın idmanın bütün növləri ilə məşğul olmasına geniş şərait yaradıb", - deyə leytenant Orxan Mahmudov bildirdi ki, şəxsi heyətin idmana marağının artırılması məqsədi ilə yarışlar təşkil olunur: "Həmin yarışlarda fərdi və yaxud komanda şəklində yer qazanan hərbi qulluqçularımız mükafatlarla təltif olunurlar. Döyüşdə uğur əldə etmək üçün hərbi qulluqçuların fiziki hazırlıqları yüksək səviyyədə olmalı, onlar verilən tapşırıqları cəld və vaxtında yerinə yetirməyi bacarmalıdırlar. Əsas məqsəd döyüşçülərin sağlamlığını, iradəsini, dözümlülüyünü yüksəltməkdir. Buna görə də şəxsi heyətlə günün nizam qaydasına uyğun olaraq hər gün fiziki hazırlıq məşğələləri keçirilir.”

Əsgərlərin fiziki hazırlıq məşğələsini seyr etdikcə adamda onlarla birlikdə idman etmək istəyi yaranır. Çünki burada şəxsi heyət idmanı vahid komanda şəklində həyata keçirir və bir nəfər kimi həyata keçirilən məşğələ məndə xoş təəssürat yaradır. "Vətən, sənə canım fəda", "Şəhidlər ölməz, Vətən bölünməz", "Hər şey Vətən üçün" şüarı altında reallaşdırılan idman məşğələsi adamda belə inam yaradır ki, bu oğullar Lələtəpədə, Bayraqtəpədə, Cocuq Mərcanlıda qazanılan uğurları davam etdirəcək, xalqımızı tarixi Qələbəyə qovuşduracaqlar.



Göygöl rayonundan ordu sıralarına çağırılan və 16 aydır ön xətdə Vətənimizin keşiyində dayanan əsgər Vasif İsayev söhbət zamanı bildirdi ki, torpaqlarımız uğrunda savaşa hər zaman hazırdı: "Mən və əsgər yoldaşlarımın bir məqsədi var - torpaqlarımızı işğaldan azad etmək və düşməni ərazilərimizdən qovub çıxarmaq. Buna qadir olmaq üçün günbəgün fiziki hazırlığımızı da artırmalıyıq."

Ağdam rayonundan ordu sıralarına çağırılan əsgər Rəhim İbrahimova yaxınlaşıram. O hələ kiçik yaşlarından ermənilərin millətimizə qarşı vəhşilikləri haqqında valideynlərindən eşidib, öyrənib. "Düşmənin dinc sakinlərimizə verdiyi əzablar, körpələrin, qocaların, qadınların başlarına gətirdiyi işgəncələr intiqam hissimi daha da gücləndirir. Hərbi xidmətə gəlməmişdən əvvəl sərbəst güləşlə məşgul olurdum."

- Bəs, burada idmanla məşğul olmaq imkanın necədir? - sualıma cavab olaraq əsgər İbrahimov komandirlərinə minnətdarlığını bildirdi: "Komandirlərimiz hər birimizin fiziki cəhətdən möhkəm olması, ruh yüksəkliyimizi artırmaq üçün əllərindən gələni əsirgəmirlər. Taborumuzda tez-tez yarışlar təşkil olunur və həmin yarışlarda mən də həvəslə iştirak edirəm".

Əsgər İbadulla Zeynalov da fiziki hazırlığın şəxsi heyətin formalaşmasında böyük əhəmiyyət kəsb etdiyindən söz açdı. O da 3 ildən artıq bir müddətdə sərbəst güləş növü ilə məşğul olub: "Fiziki hazırlıq sağlamlığa zəmin yaradır, insanı iradəli, dözümlü olmağa ruhlandırır. Necə deyərlər, kim 100 il yaşamırsa, günah özündədir; sağlam bədəndə sağlam ruh olar. Bu kimi ifadələr əbəs yerə işlənmir. Hərbi qulluqcu həm fiziki, həm də döyüş hazırlığına görə seçilməlidir ki, ən çətin tapşırığın öhdəsindən bacarıqla gəlsin.”

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

*Hərbi ənənələr, yeniliklər*

# Snayper tüfəngi “Toçnost”



Yaxın vaxtlarda Rusiya ordusu müasir "Toçnost" snayper tüfəngi ilə təchiz olunacaq. Bu haqda Maşınqayırma üzrə Mərkəzi Elmi Tədqiqat İnstitutunun baş direktoru Dmitriy Semizorov məlumat verib. Onun sözlərinə görə, tüfəng silahlanmaya Rusiyanın bütün komponentlərinin lokallaşdırılmasından sonra qəbul ediləcək. Onun hazırlanmasına əsas 2011-ci ildə ixrac üçün hazırlanmış T-5000 snayper tüfəngi səbəb olub. Hazırda müəssisə qarşısında tüfəngin güllə və mikroelektron komponentlərini əvəz etmək məsələsi dayanır.

T-5000 snayper kompleksi patronlarla eyni vaxtda hazırlanıb. Hər tüfəngdə iki güllə - adi və zirehdələn patronlar mövcuddur. Snayper kompleksi optik nişangah və lazerli uzaqölçənlə təchiz edilib. "Toçnost" silahının hazırlanması zamanı üzərində 200-dən çox dəyişikliklər edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan cüdoçusu Rüstəm Orucov dünya çempionatında gümüş medalla kifayətlənməli olub



Macarıstanın paytaxtı Budapeştdə keçirilən cüdo üzrə dünya çempionatında 73 kiloqram çəki dərəcəsində yarışın finalında mübarizə aparan Azərbaycan idmançısı, Rio Olimpidasının gümüş mükafatçısı Rüstəm Orucov ikinci yerlə kifayətlənməli olub.

Finalda yaponiyalı Soiçi Haşimoto ilə qarşılaşan idmançımız qızıl xalla birinciliyi əldən verib.

Yarışın üçüncü günündə kişilər 73, qadınlar isə 57 kiloqram çəki dərəcəsində qüvvələrini sınayıblar.

Qeyd edək ki, mundialın ilk günündə Azərbaycan millisinin üzvü Orxan Səfərov (60 kq) gümüş medal qazanmışdı.

## Azərbaycan güləşçisi Aslanbek Alborov dünya çempionatında bürünc medal qazanıb



Azərbaycan idmançısı Aslanbek Alborov Paris şəhərində keçirilən güləş üzrə dünya çempionatının sonuncu günündə bürünc medal qazanıb.

Avqustun 26-da 65, 70, 74 və 97 kiloqram çəki dərəcələrində sərbəst güləşçilər mübarizəyə qoşulub.

Doxsan yeddi kiloqram çəkidə mübarizə aparan Azərbaycan idmançısı Aslanbek Alborov bürünc medal uğrunda qarşılaşmada Qazaxıstan idmançısı Mamed İbraqimova 3:2 hesabı ilə qalib gələrək yarışda üçüncü pillədə qərarlaşıb.

## Boksçumuz Məhəmmədrəsul Məcidov dünya çempionatında yarımfinala vəsiqə qazanıb



Almaniyanın Hamburq şəhərində keçirilən kişi boksçular arasında dünya çempionatında dörddəbir final mərhələsi başa çatıb. Mərhələnin son döyüşündə Azərbaycan millisinin lideri Məhəmmədrəsul Məcidov gücünü yoxlayıb.

+91 kq çəki dərəcəsində rinqə çıxan ikiqat dünya çempionumuz Camili-Dini Aboudo-Moindze (Fransa) ilə üz-üzə gəlib. Görüş boksçumuzun 3:2 (27:30, 30:27, 28:29, 30:27, 29:28) hesablı qələbəsi ilə yekunlaşıb. O, yarımfinala yüksəlməklə ən azı bürünc medalı da təmin edib.

Məhəmmədrəsul Məcidov sentyabrın 1-də keçiriləcək ikidəbir finalda avstraliyalı Jozef Qudelli sınağa çəkəcək.

## Azərbaycan taekvondoçusu dünya birinciliyini medalla başa vurub



Misir Ərəb Respublikasının Şarm Əl-Şeyx şəhərində keçirilən yeniyetmə taekvondoçular arasında dünya birinciliyi yekunlaşıb.

Baş məşqçi Səbuhi Zülfüqarov və böyük məşqçi Sənan Həşimovun rəhbərlik etdiyi Azərbaycan yığması yarışı bir medalla başa vurub.

Komandamızın heyətində 37 kiloqram çəki dərəcəsində mübarizə aparan Riyad Şirəliyev fəxri kürsüyə yüksəlib. Yarımfinaladək irəliləyən idmançımız bu mərhələdə məğlub olaraq mundialda bürünc medalla kifayətlənib.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əliyev İbrət Məhəmməd oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 357
Nüsxə 4600